

Qərib Mehdi

# Ey zalım zəlzələ!..

(elegiya)

***Ey dağıdıcı, viranedici, öldürücü Zəlzələ!.. Yenə Türkiyəni hədəf seçdin. Türkiyə zaman-zaman iki tərəfdən – yerin üstündən və altından saldırılara məruz qalır. Onun üçün gözlənilməz heç nə yoxdur. O, buna öyrəncəlidir. Bu ölkə dönə-dönə fəlakətlərlə üzləşsə də, onu yenməyə heç bir qarı düşmənin – nə məkrli yerüstü qapsamçıların, nə də yeraltı amansız təbiət hadisələrinin gücü çatmayıb.***

Ey soyqırımın babası zalım Zəlzələ! Sən yüzlərlə binanı, minlərlə insanı qurbanına çevirdin. Məqsədinə birdəfəlikmi çatmaq istəyirsən? Yaxşı bil ki, bu mənfur niyyətin baş tutmayacaq! İllər öncəsi tanıdığım Türkiyəni bir də tanı: O yaralanar, büdrəyər, ancaq yıxılmaz. O, yenə mətinliyinə güvənib əvvəlki tək ayaqda qalacaq!

Ey zalım Zəlzələ, sən yenə də müdhiş xislətindən əl çəkmirsən. Diqqət edirəm. Bir binanı çökdürüb daşını öldürdün. Ölən daşı yerinə qoyacaqlar, bina yenidən dirçələcək. Sabah yenə günəş onun şəffaf pəncərələrini işıqlandıracaq.

Bir əli çiçəkli, dili xoş diləkli insanı öldürdün. Köməyə gəlməliydilər. Lakin Tanrı yana baxdı. Həkimlərin isə gücü çatmadı. Dirilməyəni torpağa tapşırdılar. Heyfg Dünyadan vaxtsız köçən kəs bir daha Günəşi salamlaya



bilməyəcək. Belə nümunələrin sayı-hesabı yoxdur.

Ey zalım Zəlzələ, elə səninki insanlarladır (yalnız insanlarla-

mı?!)

Canlı varlıqla bu qədər öcəşmək olmaz. Bilirəm, hələ də niyyətində qərarlısan. Sənə nifrəti-

mi gözəl bir şairin dili ilə deyirəm: «Heç işin avand olmasın».

***Çağırdım, cavab gəldi:***

***– Mən burdayam!***

***Bu səs ayaq üstə olan Türkiyənin səsiydi. Qardaşı Azərbaycanın da əli kürəyində, gücü biləyində!..***

Türküstan.- 2023.- 21-27 fevral.- S.13.